BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 *Humanitar elmlər seriyası* 2006

# XIX ƏSRİN İKİNCİ YARISINDA AZƏRBAYCANIN YELİZAVETPOL QUBERNİYASININ İPƏK EMALI SƏNAYESİNDƏ AZƏRBAYCANLILARIN SAHİBKARLIQ FƏALİYYƏTİNƏ DAİR

**S.S.XƏLİLOVA**
***Bakı Dövlət Universiteti***

XIX əsrin ikinci yarısında Azərbaycan iqtisadiyyatının mühüm əhəmiyyətə malik olan sahələrindən biri də ipək sənayesi idi. İpəkçiliyin burada qədim tarixə malik olmasına baxmayaraq, onun coşğun inkişafı XIX əsrin 20-ci illərindən başlamışdı. İmperiya maraqlarını güdən çar hökuməti müxtəlif cəmiyyət və şirkətlər vasitəsilə Cənubi Qafqazda, o cümlədən Azərbaycanda ipəkçiliyin inkişafına yardım edirdi.

1827-ci ildə fəaliyyət mərkəzi Yelizavetpol quberniyasının Nuxa qəzası olmaqla, (1, s.304-305) «Rusiyada ipəkçiliyin yayılması və inkişafı cəmiyyəti», 1836-cı ildə «Cənubi Qafqazda ipəkçiliyi və ticarət sənayesini yayan cəmiyyət» yaradılmışdı. 1843-cü ilin iyulunda Nuxada təşkil edilmiş «İpəkçiliyin tətbiqi məktəbi»nin (2, s.390) Azərbaycanda ipək sənayesinin elmi əsaslarla inkişaf etdirilməsində xüsusi xidmətləri olmuşdu.

Görülmüş tədbirlər barama istehsalında artıq özünü göstərirdi. 1851-1856-cı illərdə Cənubi Qafqazda 25-30 min pud xam ipək əldə olunmuşdusa, 1857-1864-cü illərdə bu, 50 min puda qalxmışdı (3, s.38). İpəkçilik geniş miqyasda Cənubi Qafqazın şərq bölgələrində, xüsusilə də Azərbaycanda yayılmışdı. Azərbaycanda ipəkçiliyin əsas mərkəzi Yelizavetpol quberniyasının Nuxa, Şuşa, Qaryagin, Bakı quberniyasının Göyçay, Lənkəran, Quba qəzaları, eləcə də Naxçıvan qəzası və Zaqatala dairəsi idi. 1888-ci ildə Zaqatala dairəsi daxil olmadan, Azərbaycanda 1.100 kənddə ipəkçiliklə məşğul olurdular (4, s.15).

İpək sənayesində azərbaycanlı sahibkarların daha fəal iştirak etdikləri ipəkçilik mərkəzlərindən biri də Nuxa-Zaqatala zonası idi. Məhz «Qafqazın Lionu» adlandırılan Nuxa qəzasının Xanabad kəndində 1829-cu ildə Azərbaycanda ilk ipək emalı fabriki tikilmişdi (5, s.582). Artıq1861-ci ildə Nuxa qəzasında 50, 1862-ci ildə isə 56 baramaaçan müəssisə vardı (6, s.296). Onların əksəriyyəti xırda müəssisələr olsa da, buxar enerjisindən istifadə olunan fabriklər də getdikcə artırdı. XIX əsrin 70-

80-cı illərində Nuxa qəzasında 16, 1900-cü ildə isə 46 müəssisə buxar enerjisi ilə işləyirdi (7, s.97). Qafqazın əmtəəlik ipəyinin çoxu bu müəssisələrdə alınırdı. Qəzada fəaliyyət göstərən ilk müəssisələrdən biri 1850-ci ildə Vartaşen kəndində tikilmiş Muradxanova məxsus ipəksarıma fabriki idi. 1852-ci ildə burada 10 puddan çox məhsul istehsal olunmuşdu. İtsehsal etdiyi xam ipəyin yüksək keyfiyyətinə görə Muradxanov «Qafqaz kənd təsərrüfatı cəmiyyəti»nin bürünc medalı ilə təltif edilmişdi. Onun əldə etdiyi xam ipək Moskvaya göndərilir və orada pudu 180 manata satılırdı. Muradxanovun fabriki azərbaycanlı sahibkarlar tərəfindən tikilmiş birinci fabrik idi.

Qəzada azərbaycanlılar arasında ən iri fabrik isə Kərim Əsədova məxsus idi. Əsası 1884-cü ildə qoyulmuş bu fabrikdə 24 dəzgah olmuşdu. Salam Lətifovun və Şallı oğluna məxsus fabrikin hər birində 20, Əlibala Həsənoğlunun və Abdul Kərimin, Yəhya və Hacı Abdullanın fabriklərinin hərəsində 12 dəzgah qoyulmuşdu. Bundan başqa, 1880-cı illərdə Nuxa şəhərində Musa Məmmədova, Məmməd Əkbər oğluna və Haşım Ağa oğluna məxsus daha 3 baramaaçan fabrik mövcud idi (8, s.136). Bu fabriklərdə dəzgahların sayını dəqiqləşdirmək mümkün olmasa da, yuxarıda qeyd olunanları nəzərə alaraq, onların hərəsində 12 dəzgahdan az olmadığını təxmin etmək olar. 1873-cü ildə Zaqatalada Səfərov tərəfindən baramaaçan fabrik inşa edilmişdi. Buxar enerjisi ilə işləyən bu fabrikdə 1886-cı ildə 40 dəzgah var idi (2, s.401-403). Deməli, Nuxa qəzasındakı fabriklərin 10-u və ya 63%-i, fabriklərdə qoyulmuş 406 dəzgahın 148-i və ya 37,0%-i, fəaliyyətdə olan təxminən 300 dəzgahın isə 140-ı və ya 47,0 %-i azərbaycanlı sahibkarlara məxsus idi.

XIX əsrin 90-cı illərinin əvvəllərində Nuxa-Zaqatala zonasında fabrik səviyyəsində olan 25 baramaaçan fabrik vardı. Min bir nəfər fəhlənin çalışdığı bu fabriklərdə 27 buxar qazanı, 956 dəzgah olmuşdu. Bu fabriklərdə il ərzində 12.307 pud quru barama emal olunmuşdu ki, ondan da 1.824 pud xam ipək alınmışdı (2, s.406). Buradakı bütün fabriklərin 60,0%-ni təşkil edən 15 baramaaçan fabrik, fəhlələrinin təxminən 64,0-70,0%-i, dəzgahların 52,0%-i, buxar qazanlarının 60,0 %-i azərbaycanlıların payına düşürdü. Emal olunmuş quru baramanın 65,0%-i, əldə olunmuş xam ipəyin isə 60,0-65,0%-i yenə onlara aid idi.

1895-ci ildə Nuxa qəzasında baramaaçan fabriklərin sayı 33-ə çatmışdı. Bu fabriklərdə 995 dəzgah, 1.768 nəfər fəhlə olmuşdu. İl ərzində 825.083 manatlıq 24.102 pud quru barama emal edilərək 1.472. 553 manatlıq 8 min puddan çox hazır məhsul alınmışdı (2, s.413-414) ki, bu da əvvəlki dövrlə müqayisədə bir neçə dəfə çox idi. Azərbaycanlı sahibkarların ipək emalı sənayesindəki xüsusi çəkisi yenə yüksək olaraq qalırdı. Belə ki, qəzadakı baramaaçan fabriklərin təxminən 64,0%-i, fəhlələrin 58,0%-i, emal olunmuş quru baramanın və əldə olunmuş hazır məhsulun 60,0-61,0%-i onların payına düşürdü.

İstehsalın iriləşməsi nəticəsində kiçik müəssisələrin çoxu

bağlanmaq məcburiyyətində qalırdı. 1897-ci ildə Nuxa qəzasında 27 fabrik öz fəaliyyətini davam etdirirdi. Bu fabriklərdə 1.199 nəfər fəhlə çalışırdı. Fabriklərin 16-sı və ya 59,2%-i azərbaycanlılara məxsus idi (2, s.458-459). Sərəncamında daha çox fəhlə olan azərbaycanlı sahibkarlardan Ağa Musa Hacı Məmmədovun fabrikində 108 nəfər, Hacı Abdul Ağa oğlunun fabrikində 73 nəfər, Hacı Məmmədrəhim Hacı Əbdürrəhim oğlunun fabrikində 72 nəfər, Məşədi Hacı Kərim oğlunun fabrikində 70 nəfər, İlyas Əziz oğlunun fabrikində 59 nəfər, Əlibaba Həsən oğlunun fabrikində 52 nəfər, Süleyman oğlu və İsmayıl, Süleyman, Abdulla Hacı Əli oğlanlarının fabrikində 43 nəfər fəhlə çalışırdı.

Azərbaycanlılara məxsus fabriklərin 3-nün il ərzində istehsal etdiyi xam ipəyin miqdarı 100 puddan çox idi. Ağa Musa Hacı Məmmədovun fabrikində hətta istehsalın həcmi 300 puda çatırdı. Bütövlükdə azərbaycanlıların istehsal etdikləri məhsulun təxminən 45,0-48,0%-i istehsal gücü 100 puddan çox olan 3 fabrikin payına düşürdü.

Yuxarıda deyilənlərdən belə bir nəticə hasil olur ki, XIX əsrin 90-cı illərində Nuxa-Zaqatala zonasında fəaliyyət göstərmiş bütün baramaaçan fabriklərin orta hesabla təxminən 60-61%-i, bu fabriklərdəki dəzgahların 54,0-55,0%-i, fəhlələrin 60-62%-i, istehsal olunmuş məhsulun isə 60-63%-i azərbaycanlılara məxsus olmuşdu.

Qeyd etmək lazımdır ki, XIX əsrin 70-80-cı illərində quberniyanın Qaryagin qəzasında və Qarabağda meydana gəlmiş baramaaçan fabriklər 1880-cı ildə Qaryagin qəzasının Hadrud kəndində Qulu Muradovun baramaaçan fabriki (8, s.137) istisna olmaqla, qeyri-azərbaycanlılara məxsus olmuşdu. 1890-cı illərdə də bu mənzərə dəyişməmişdi. 1893-1894-cü illərdə Yelizavetpol quberniyasının Şuşa və Qaryagin qəzalarında 15-dən çox baramaaçan fabrikdən yalnız biri azərbaycanlı sahibkar Qulu Muradova məxsus idi. Fabrikdə 5 at gücündə olan 1 buxar qazanı, 30 dəzgah və 35 nəfər fəhlə olmuşdu. İl ərzində 5 min manatlıq 24 pud xam ipək alınmışdı (8, s.137) ki, bu da Şuşa və Qaryagin qəzalarındakı fabriklərin 6,6%-i, oradakı dəzgahların 8,4%-i, fəhlələrin 5,1%-i, istehsal olunmuş xam ipəyin isə 2,2%-i demək idi.

1897-ci ildə Qarabağ zonasındakı fabriklərin demək olar ki, hamısı qeyri-azərbaycanlılara məxsus olmuşdu (2, s.459-460). 1899-cu ildə Qaryagin qəzasında digər azərbaycanlı sahibkar – Hacı Yusif Hüseyn oğlunun 40 nəfər fəhləsi olan baramaaçan fabriki fəaliyyətə başlamışdı (9, s.56).

1880-cı illərin ortalarında İrəvan quberniyasının Naxçıvan qəzasında 9 baramaaçan müəssisə vardı. Onların ən azı 50%-i azərbaycanlılara – Ordubad şəhərində yerləşən və 16 nəfər fəhləsi olan Ağa Mahmud Hacı Fərəc oğluna, yenə orada 12 nəfər fəhləsi olan Hacı Molla Rəsul İsmayıl oğluna, 8 nəfər fəhləsi olan Muxtar Məşədi Bağır oğluna və 24 nəfər fəhləsi olan Əbi-

yevə (2, s.438-439; 9, s.58) məxsus idi.

Bütün deyilənlərdən aydın olur кi, XIX əsrin 70-90-cı illərində Yelizavetpol quberniyasındaкı müəssisələrin orta hesabla təxminən 50-52%-i, Naxçıvan qəzasındaкı müəssisələrin isə 60-63%-i azərbaycanlılara məxsus olmuşdu. Ümumi məhsul istehsalında azərbaycanlı sahibкarların müəssisələrinin payı Yelizavetpol quberniyası üzrə orta hesabla təxminən 47-50%-ə çatırdı. Naxçıvan qəzası üzrə кifayət qədər məlumatın olmaması üzündən bunu hesablamaq mümкün olmamışdır.

Ümumiliкdə isə, Azərbaycandaкı ipəк emalı müəssisələrinin ən azı üçdə iкisi həmişə azərbaycanlıların ixtiyarında olmuşdu (9, s.61). Başqa sözlə, bütün sahibкarların təxminən 72-75%-i azərbaycanlılardan ibarət idi.

## ƏDƏBİYYAT


1. Шацилло К.Ф. Николай II. Реформы или революция / История отечества: люди, идеи, решения. Очерки истории России XIX- начало XX вв. Москва, 1991.
2. Сумбатзаде А.С. Сельское хозяйство Азербайджана в XIX веке. Баку, 1958.
3. Гиндин И.Ф.Государственный банк и экономическая политика царского правительства. Москва, 1960.
4. Nuriyeva Z. Azərbaycan sənayesində milli burjuaziya. Baкı, 1999.
5. Azərbaycan tarixi. Baкı, Azərnəşr, 1994.
6. Исмаилзаде Д.И. Русское крестьянство в Закавказье. Москва, 1982.
7. Vəliyev T.T. İmperializm dövründə Azərbaycanda pambıqçılıq, mahlıc istehsalı və səhmdar təsisçiliyi / Социально-экономические и политические предпосылки социалистической революции в Азербайджане, Baкı, 1983.
8. Обзор деятельности императорского Кавказского общества сельского хозяйства за пятьдесят лет. Тифлис, 1901.
9. SSRİ tarixi (1861-1917). 2 cilddə, II c.. Baкı, Maarif, 1982.


## О ПРЕДПРИНИМАТЕЛЬСКОЙ ДЕЯТЕЛЬНОСТИ АЗЕРБАЙДЖАНЦЕВ В ШЕЛКОВОЙ ПРОМЫШЛЕННОСТИ ЕЛИЗАВЕТПОЛЬСКОЙ ГУБЕРНИИ АЗЕРБАЙДЖАНА ВО ВТОРОЙ ПОЛОВИНЕ XIX ВЕКА


**С.С.ХАЛИЛОВА**


### РЕЗЮМЕ


В рассматриваемой статье С.С.Халиловой, речъ идет о деятельности азербайджанских предпринимателей в развитии шелковой промышленности Елизаветпольской губернии Азербайджана во второй половине XIX века. Несмотря на тот факт, что шелководство имело древнюю историю в Азербайджане, но бурное развитие этой отрасли относится к 20-ым годам XIX века.

В итогах исследования мы пришли к выводу, что азербайджанские предприниматели сыграли большую роль в развитии шелковой промышленности. Так как в 70-90-е годы XIX века 50-52% всех предприятий Елизаветпольской губернии принадлежали азербайджанским предпринимателям.

**THE OWNERSHIP ACTIVITY OF AZERBAIJANIAN IN SILKY INDUSTRY OF YELIZAVETPOL PROVINCE OF AZERBAIJAN IN THE SECOND HALF OF XIX CENTURY**

**S.S.KHALILOVA**

**SUMMARY**

The article written by S.S.Khalilova was dedicated to the ownership activity of azerbaijanian in silky industry of Yelizavetpol province of Azerbaijan in the second half of XIX century. Although there is an ancient history of the silky manufacturing but its' boisterous evolution was began from $20^{th}$ years of XIX century.
As a result, we came to the conclusion that the Azerbaijan owners played an important role in the development of the silky industry. Since the 50-52% of the enterprises in Yelizavetpol province are belong to the Azerbaijan owners in the 70-$90^{th}$ years of XIX century.